*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2023, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 6-11* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2023.1.6*

# Çoxmetodlu ədəbiyyata keçid və yeni ədəbi cərəyanların formalaşması prosesləri

**İsa Həbibbəyli**
AMEA-nın prezidenti, akademik
E-mail: isa.habibbeyli@science.az

**Annotasiya.** Məqalədə ilk dəfə olaraq müstəqillik dövrü Azərbaycan ədəbiyyatının bədii yaradıcılıq metodu problemi tədqiq olunur. Müəllif Sovet ədəbiyyatında sosialist realizmi yaradıcılıq metodunun vahid bədii metod kimi mövcud olmasını keçmiş Sovetlər İttifaqının təkpartiyalı cəmiyyət strukturunda formalaşması ilə əlaqələndirir.
XX əsrin doxsanıncı illərindən etibarən Azərbaycanda müstəqil hüquqi-demokratik dövlətin qurulması və inkişafı ədəbiyyatda vahid yaradıcılıq metodundan çoxmetodlu ədəbiyyata keçid üçün ədəbi-ideoloji zəmin hazırlamışdır. Məqalədə çoxmetodlu ədəbiyyat nə deməkdir sualına cavab verilmiş və xüsusiyyətlərindən bəhs olunmuşdur.
Müəllif çoxmetodlu ədəbiyyat dövründə yaranan ədəbi cərəyanların bədii metod funksiyası yerinə yetirdiyini elmi-nəzəri cəhətdən əsaslandırmış və Azərbaycan ədəbiyyatında meydana çıxan ədəbi cərəyanlar haqqında elmi-nəzəri qənaətlərini diqqətə çatdırır.
Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının təcrübəsi əsasında yazılmış məqalədəki elmi-nəzəri müddəalar müasir dövrdə digər xalqların da ədəbiyyatlarında bədii metod məsələsini öyrənmək üçün açar verə bilər.
**Açar sözlər:** çoxmetodlu ədəbiyyat, keçid, Azərbaycan ədəbiyyatı, Müstəqillik dövrü

**Məqalə tarixçəsi:** göndərilib – 10.10.2023; qəbul edilib – 26.10.2023

# Processes of transition to multi-method literature and the formation of new literary movements

**Isa Habibbeyli**
President of ANAS, academician
E-mail: isa.habibbeyli@science.az

**Abstract.** The article investigates for the first time the problem of the method of artistic creativity in Azerbaijani literature during the period of Independence. The author connects the existence of the creative method of socialist realism as a single artistic method in Soviet literature with the formation of the one-party society structure of the former Soviet Union. The establishment and development of an independent legal democratic state in Azerbaijan since the 90s led to the creation of an artistic and ideological field for the transition of a single creative method of literature to multi-method literature. The article answers the question of what multimethod literature means and discusses its features.

The author scientifically substantiates that the literary movements that emerged throughout the multi-method literature era functioned as an artistic method and brings to attention the scientific and theoretical conclusions he made about the literary movements that appeared in Azerbaijani literature.
The scientific and theoretical provisions of the article, written on the basis of the experience of Azerbaijani literature of the period of Independence, in our time can serve as a key for studying the issue of artistic method in the literature of other peoples.
**Keywords**: multi-method literature, transition, Azerbaijani literature, period of Independence

**Article history:** received – 10.10.2023; accepted − 26.10.2023

## Giriş / *Introduction*

Məlum olduğu kimi, keçmiş Sovetlər İttifaqında təkpartiyalı siyasi sistem hakim olduğu üçün ədəbiyyatda və incəsənətdə də tək yaradıcılıq metodu olan sosialist realizmi yaradıcılıq metodu mövcud olmuşdur. Lakin 14 fevral 1956-cı ildə Nikita Xruşşovun kommunist partiyasının XX qurultayında sovet cəmiyyətində siyasi mühitin yumşaldılması haqqındakı tarixi nitqindən sonra ədəbiyyat sahəsində də yeniləşmə meyilləri müşahidə edilməyə başlamışdır. “Xruşov mülayimləşməsi” adlandırılan həmin dövrdən etibarən sovet ədəbiyyatı müəyyən dərəcədə hakim ideologiyanın buxovundan azad olaraq, həyata və insana doğru dönüş etmişdir. İlya Erinburqun “Mülayimləşmə” (“Ottepel”) adlı povestinin 1954-cü ildə nəşr edilməsi ilə ədəbiyyatda yeni bir nəfəsin başlandığı elan olunmuşdur. Beləliklə, ədəbiyyatda əllincilər adlı yeni bir nəsil formalaşmışdır. Biz ədəbiyyatın inkişaf yolundakı bu fərqli axını “aralıq nəsil” adlandırırıq. Həqiqətən də “Əllincilər” özlərindən əvvəlki ideologiyaya məhkum edilmiş ədəbi nəsillə onlardan sonra ədəbiyyata gəlmiş yenilikçi “altmışıncılar” arasında aralıq mövqeyi yaratmış, körpü salmaq funksiyasını yerinə yetirmişlər. Ona görə də XX əsrin əllinci illərində ədəbiyyata gəlmiş yazıçı və şairləri ədəbiyyatda sovet ideologiyasının ilk buzqıranları adlandırmaq olar. XX əsr rus ədəbiyyatında Aleksandr Tvardovski, Boris Pasternak, Aleksandr Soljenitsın, Mixail Bulqakov, İlya Erinburq və başqaları əllincilər ədəbi nəslinin parlaq nümayəndələri kimi meydana çıxmışlar. Azərbaycan ədəbiyyatında Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, İsa Hüseynov, Xəlil Rza Ulutürk, Məmməd Araz, İslam Səfərli, Hüseyn Abbaszadə, Hüseyn İbrahimov və başqaları əllinciləri “aralıq ədəbi nəslinin” görkəmli nümayəndələri idilər. Gürcü ədəbiyyatında da əllincilər ədəbi nəslinin tanınmış nümayəndələri olmuş Nodar Dumbadze, Anna Kalantadze, Naman Levonidze və başqaları ideologiyadan uzaq olan yeni tipli əsərlər yaratmışlar. Keçmiş SSRİ-də müttəfiq respublikalardan hər birində “əllincilər”in nümayəndələri ədəbi mühitin aparıcı simaları kimi nəzərə çarpmışdır. Beləliklə, aralıq nəsli ədəbiyyatda sovet ideologiyasının ilk buzqıranları olaraq ədəbi fikrin inkişafında yeni dalğa yırtmışlar.

## Əsas hissə / *Main Part*

Əllincilərin ardınca ədəbiyyata gəlmiş “Altmışıncılar ədəbi nəsli”nin geniş şəbəkəsi və ardıcıl yaradıcılıq fəaliyyəti nəticəsində ədəbiyyatda və incəsənətdə sosialist realizmi metodunun mövqeləri tamamilə dağıdılmışdır. Altmışıncılar: rus sovet ədəbiyyatında Yevgeni Yevtuşenko, Robert Rojdestveniko, Andrey Voznosenski, Valentin Rasputin…., Azərbaycanda Anar, Elçin, Əli Kərim, Sabir Əhmədli, Fikrət Qoca, İsi Məlikzadə…, Gürcüstanda Otar Çiladze, Quran Pandckenidze, Liya Strua və başqaları sosialist realizminin əleyhinə çıxmadan, onu açıq tənqid etmədən həyatı və insanı təbii proseslərin axarında təsvir edən parlaq əsərlər yaratdılar. Sovet tənqidçilərinin altmışıncılara sərt münasibət bəsləmələrinə baxmayaraq, onlar yazdıqları yeni və maraqlı, əhəmiyyətli əsərlərlə

ədəbi prosesdə müvazinətlərini qoruyub saxlaya bildilər. Artıq yetmişinci illərdə altmışıncılara qoşulan yeni ədəbi nəsillərin əsərləri ilə altmışıncıların ədəbiyyatdakı mövqeləri daha da möhkəmləndirilmişdir. Bundan sonrakı dövrdə – səksəninci illərdə sovet ədəbiyyatında sosialist realizmi formal şəkildə fəaliyyətini davam etdirmişdir.

Sosialist realizmi yaradıcılıq metodunun mövqeyinin zəifləməsi hələ XX əsrin yetmişinci illərindən etibarən ədəbiyyatda fərqli bədii metodların nəzərə çarpması, hətta mövcudluğu ətrafında elmi fikirlərin səsləndirilməsinə şərait yaratmışdır. Sovet hakimiyyətinin ideoloji prinsiplərinin hələ qüvvədə olduğu bir şəraitdə ədəbiyyatşünaslıq elmində ədəbiyyatda sosialist realizmi ilə yanaşı, digər başqa bədii metodların olduğu haqqında nəzəri mülahizələr irəli sürülmüşdür.

Sovet ədəbiyyatşünasları XX əsrin altmışıncı illərindən etibarən ədəbiyyatda sosializm realizminin üzvi tərkib hissəsi kimi qəbul edilmiş inqilabi romantikanın inkişaf edərək sosialist romantizmi kimi paralel bir bədii metodun formalaşdığını bəyan etmişlər. Bundan başqa, ədəbiyyatşünaslıq elmində “altmışıncılar” ədəbi nəslinin yaradıcılığı sosialist tənqidi realizmi yaradıcılıq metodu nümunəsi kimi təqdim olunmuşdur. Heç şübhəsiz, sosialist romantizmi və sosialist tənqidi realizmi anlayışlarının əvvəlkindəki “sosialist” sözü şərti olub, həm sovet dövrünün tələb etdiyi ifadə və həm də həmin nəzəri ideyaların müəlliflərinin özlərini qorumaq vasitəsi kimi işlətdikləri formal sözlərdən ibarətdir. Deməli, çoxmetodlu ədəbiyyat anlayışı hələ XX əsrin yetmişinci illərində meydana çıxmış, sonrakı dövrlərdə ədəbiyyatda və cəmiyyətdə gedən demokratik proseslərin təsiri ilə formalaşmağa başlamışdır.

SSRİ-nin dağılması və yeni müstəqil dövlətlərin yaranması ilə dünyanın xəritəsi dəyişmişdir. Dövlət müstəqilliyinə nail olmaq hər bir xalqın çoxəsrlik mübarizəsinin və arzusunun əyani ifadəsi kimi bütün ölkələrdə ədəbiyyatda və ictimai fikirdə rəğbətlə qarşılanmışdır. Müstəqillik qazanmış yeni dövlətlərdə keçmiş totalitar rejimin əvəzinə, demokratik idarəetmə prinsipləri qəbul edildiyi üçün yeni tarixi şəraitdə təkpartiyalı sistemə birdəfəlik son qoyulmuşdur. Müstəqillik əldə etmiş ölkələrin hamısında müxtəlif siyasi baxışlara malik olan çoxpartiyalı sistem formalaşmışdır. Təbii ki, təkpartiyalı sistemin aradan qaldırıldığı və çoxpartiyalı hüquqi demokratik dövlət sisteminin qəbul olunduğu və inkişaf etdirildiyi bir cəmiyyətdə keçmiş Sovetlər İttifaqında olduğu kimi, hətta başqa cür adlandırılsa da, yenidən təkmetodlu ədəbiyyatın mövcud olması mümkün deyildir. Təkpartiyalı Sovetlər İttifaqının dağılması ilə birlikdə sosialist realizmi də, vahid yaradıcılıq metodu anlayışı da tarixin arxivinə verilmişdir.

Bəs müstəqillik əldə etmiş respublikalarda hansı yaradıcılıq metoduna istinad edilməlidir? Təəssüf ki, əldə edə bildiyimiz elmi ədəbiyyatlara əsasən deyə bilərik ki, müstəqil respublikaların ədəbiyyatşünaslıq elmində bu zəruri problem ətrafında konkret elmi tədqiqatlar hələ ki, müşahidə edilmir. Son illərin ədəbi-elmi fikrində bu istiqamətdə yalnız bəzi nəzəri tezislərin səsləndirildiyini deyə bilərik. Ona görə də biz yeni müstəqillik epoxasının doğurduğu müasir şəraitdə postsovet məkanında ədəbiyyatlarda yaradıcılıq metodu axtarışları məsələsini elmi ictimaiyyətin diqqətinə çatdırmağı faydalı hesab edirik.

Bildirmək istəyirəm ki, biz artıq 2015-ci ildən həmin istiqamətdə elmi tədqiqatların aparılmasına başlamışıq. İki cildlik “Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı” (2018) və “Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri” (2019) adlı monoqrafik tədqiqatlarda yeni tarixi epoxanın ədəbiyyatında yaradıcılıq metodu probleminə dair ilkin araşdırmalar elmi ictimaiyyətə çatdırılmışdır.

Gəldiyimiz qənaət bundan ibarətdir ki, müstəqillik dövrü Azərbaycan ədəbiyyatında yaradıcılıq metodu aşağıdakı faktorlar əsasında formalaşmışdır:

1. Hüquqi-demokratik dövlətin qurulması ilə cəmiyyətdə çoxpartiyalı sistemin yaranması
2. Dünya ədəbiyyatında gedən proseslərin milli ədəbiyyatlara göstərdiyi nümunə.

Keçmiş SSRİ-nin dəmir divarlarının dağılması nəticəsində çoxpartiyalı sistemin yaranması və inkişaf etdirilməsi Azərbaycanda ən qısa müddətdə demokratik proseslərin genişləndirilməsinə, söz

və fikir azadlığına böyük meydan açmışdır. Bundan başqa, eyni zamanda həm dünya ədəbiyyatında və həm də yeni müstəqil dövlətlərdə yaranan fərqli ədəbiyyatlarla əlaqələrin genişləndirilməsi də təmin edilmişdir. Bu mühüm faktorlar ədəbiyyatda fərqli baxışlara malik olan yazıçıların yazıb-yaratmasına səbəb olmuşdur. Bu isə öz növbəsində yeni tarixi şəraitdə keçmiş təkmetodlu ədəbiyyatın yerində çoxmetodlu ədəbiyyatın yaranması zərurətini meydana çıxarmışdır. Müstəqil dövlət quruculuğunun başlanğıc illərində bu proses ədəbi dünyagörüşü və yaradıcılıq istiqaməti bir-birinə uyğun gələn yazıçı və şairləri öz ətrafına cəmləşdirən kiçik ədəbi qrupların, dərnəklərin, hətta alternativ yaradıcılıq təşkilatlarının yaranmasına yol açmışdır.

XX əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycan ədəbi mühitində yaranıb nəzərə çarpan "Baca", "Ac yol", "2+", "AGB", "Avanqard", "Eqo" və sair kimi ədəbi cərəyanlar öz ətrafında müxtəlif baxışlara və üslubları ilə səciyyələnən fərqli yazıçı və şairləri birləşdirən əsas ədəbi qrupları idi.

Lakin yaranmış ədəbi qrupların bir çoxu davamlı fəaliyyət göstərə bilmədiyi üçün qısa müddətdən sonra ədəbiyyat cəbhəsindən geri çəkilmişdir. Yaxud da bir-birlərinə ideya-sənətkarlıq cəhətdən yaxın olan ədəbi qruplar və dərnəklər birləşərək yeni keyfiyyətdə yaradıcılıq axtarışlarını davam və inkişaf etdirməyə başlayan yaradıcı qüvvələri istiqamətləndirmişdir. Beləliklə, davamlı yaşamaq haqqı qazanmış ədəbi birliklərin əsasında tədricən müstəqillik dövrünün demokratik şəraitinin doğurduğu ədəbi cərəyanlar meydana gəlmişdir. Bu yolla çoxaspektli yanaşmalar və baxışlar konkret ədəbi cərəyanların ətrafında birləşən yazıcı və şairlərin yaratdıqları çoxmetodlu ədəbiyyatı doğurmuşdur. Çoxmetodlu ədəbiyyat – azad, demokratik ölkənin çoxaspektli, çoxüslublu zəngin ədəbiyyatını özündə cəmləşdirir. Çoxmetodlu ədəbiyyat – ədəbi mühitin rəngarəng mənzərəsinin ədəbiyyatıdır. Çoxmetodlu ədəbiyyat – həyatı və insanı, cəmiyyətdə gedən prosesləri müxtəlif mövqelərdən təsir və tərənnüm etməyə geniş meydan açan yeni tipli ədəbiyyatdır. Nəhayət, çoxmetodlu ədəbiyyat – ədəbi prosesdə demokratizmi təmin edən ədəbiyyat olub, yazıçı və şairlərin bir-biri ilə sağlam rəqabət şəraitində yaradıcılıqlarını inkişaf etdirmələrinə meydan açan ədəbiyyatdır. Fərqli baxışlara malik olan yazıçı və şairlərin arasında sağlam yaradıcılıq rəqabətinin mövcud olması nəticə etibarilə müstəqillik dövrü Azərbaycan ədəbiyyatının daha da inkişaf etdirilməsinə, mövzu və ideya, habelə janr və üslub rəngarəngliyinə, ədəbi-bədii fikrin zənginləşdirilməsinə şərait yaradır.

Məlum olduğu kimi, sovet dövründə ədəbiyyatda ədəbi cərəyan anlayışı olmamışdır. Sovet dövrünün ədəbiyyat ideoloqları belə hesab edirdilər ki, ədəbi cərəyanlar ədəbiyyatın bütövlüyünü, monolitliyini poza, vahid yaradıcılıq metodu anlayışına xələl gətirə bilər. Buna görə də, sosialist yaradıcılıq realizmi yaradıcılıq metodu sovet ədəbiyyatının vahid bədii metodu kimi dövrün bütün ədəbi axınlarını və cərəyanlarını özündə birləşdirən ədəbi metod olaraq qəbul edilmişdir. Müstəqillik dövrünün çoxmetodlu ədəbiyyatı isə "bədii metod" anlayışını ədəbi cərəyanlarla ifadə etmək prinsipi üzərində qurulmuşdur. Yeni tarixi epoxada meydana çıxmış ədəbi cərəyanlar öz ətrafında birləşdirdikləri yazıçı və şairlərin yaradıcılıq istiqamətini müəyyən etmişlər. Yaxud da bir-birlərinə ideya və sənətkarlıq cəhətdən yaxın olan bədii metod əsasında yazıb-yaradan yaradıcı qüvvələr özlərinin ədəbiyyatdakı dəst-xətlərinə daha çox uyğun gələn hər hansı bir mərkəz ətrafında birləşərək ədəbi cərəyanları yaratmışlar. Bütün bunlara görə, müstəqillik dövrü çoxmetodlu ədəbiyyatı həm də çox ədəbi cərəyanlı ədəbiyyat deməkdir.

Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatında artıq aşağıdakı ədəbi cərəyanlar formalaşmışdır.

*1. Yeni realizm – neorealizm.*

Bu ədəbi cərəyan Azərbaycan ədəbiyyatında ən çox yazıçı və şairləri öz ətrafında birləşdirir. Bu ədəbi cərəyanın aparıcı simaları XX əsrin ortalarında ədəbiyyata geniş "altmışıncılar" və onların ardınca yazıb-yaratmağa başlamış yetmişincilərdən ibarətdir. Xalq yazıçıları Anar və Elçin Azərbaycan ədəbiyyatında yeni realizm ədəbi cərəyanına liderlik edirlər. XX əsrin səksəninci illərinin ortalarından sonra formalaşmış yeni ədəbi nəslin bir çox nümayəndələri də yeni realizminin ədəbi cərəyanının sıralarında fəaliyyət göstərməyə üstünlük verirlər.

*2. Postmodernizm.*

Xalq yazıçısı Kamal Abdullanın başçılıq etdiyi postmodernizm ədəbi cərəyanının artıq Azərbaycan ədəbiyyatında kifayət qədər ədəbi cəbhəsi formalaşmışdır. Azərbaycan postmodernizminin təməl əsəri sayılan Kamal Abdullanın "Yarımçıq əlyazma" romanı dünyanın bir çox xalqlarının dillərinə tərcümə olunmuşdur.

*3. Dekadentizm.*

Müstəqil dövlətçiliyin başlanğıc dövründə, XX əsrin doxsanıncı illərində xaosun və çöküşün, çaşqınlıq və ümidsizliyin doğurduğu dekadans ədəbiyyatın şəbəkəsi tədricən genişlənmiş və bu meyil inkişaf edərək ədəbi cərəyana çevrilmişdir. Xalq şairləri Vaqif Səmədoğlu və Ramiz Rövşəni önə çıxarmış dekadentizm ədəbi cərəyanı bu gün cəmiyyətdə, milli-mənəvi dəyərlər sistemində baş verən çətinlikləri və aşınmaları təsvir və tərənnüm etməklə yolunu davam etdirməkdədir.

*4. Magik realizm.*

Xalq yazıçısı İsa Hüseynov hələ XX əsrin səksəninci illərində Azərbaycan ədəbiyyatında magik realizmə doğru ciddi dönüş etmişdir. İsa Hüseynov (İsa Muğanna) – Azərbaycan ədəbiyyatının Qariel Qarsia Markesidir. Müstəqillik dövründə İsa Muğannanın pərəstişkarları və ardıcılları olan yazıçılar magik-realist istiqamətində yazıb-yaratmaq ideyası ətrafında birləşərək, bu ədəbi axını müstəqil ədəbi cərəyana çevirmişlər. Xalq yazıçısı Yusif Səmədoğlu yeni tarixi epoxada magik realizm ədəbiyyatının inkişafında yeni dalğanın yaranmasına təkan vermişdir.

*5. Akademizm.*

Daha çox elmi fəaliyyətlə məşğul olub, həm də bədii yaradıcılıq sahəsində də xidmət göstərən ədəbi qüvvələr ədəbiyyatda ağıl və idrakı, informasiya cəmiyyətinin, paralel dünyaların problemlərini ön mövqeyə çəkməklə fərqli ədəbiyyat yaratmağa nail ola bilmişlər. İntellektual ədəbiyyat akademizm ədəbi cərəyanının aparıcı istiqamətini müəyyən edir. Tanınmış ədəbiyyatşünas alim, professor Məmməd Əliyevin bioloq alim Sadıq Qarayevin nəşr əsərləri akademizm ədəbi cərəyanının cəlbedici nümunələridir.

## Nəticə / *Conclusion*

Göründüyü kimi, müstəqillik qazanmış ölkələrin ədəbiyyatı artıq de-fakto müxtəlif ədəbi cərəyanların əsasında inkişaf etməkdədir. Hazırda ədəbiyyatda mövcud olan ədəbi cərəyanlardan hər hansı birinin fəaliyyətini başa vurması, dağılması halları da, yeni ədəbi cərəyanların yaranması prosesi də baş verə bilər.

Dünya təcrübəsində də ədəbi cərəyanlar konkret bir tarixi dövrdə ictimai-siyasi şəraitin doğurduğu ədəbiyyat kimi meydana çıxaraq fəaliyyət göstərmişlər. Cəmiyyət həyatında baş verən hər hansı bir yeni ciddi ədəbi proses özünün yeni tipli ədəbiyyatını da doğurmuşdur. Ona görə də dünya ədəbiyyatında mövcud olan ədəbi cərəyanlardan hər birinin yaranması və fəaliyyət trayektoriyası vardır. Bundan başqa, hər hansı bir ədəbi cərəyanın özündən sonra yaranan və ya paralel şəkildə fəaliyyət göstərən və ideya-sənətkarlıq cəhətdən ona yaxın olan ədəbi cərəyanla birləşməsi prosesi də dünya təcrübəsində dəfələrlə baş vermişdir. Bu mənada müstəqillik dövrü Azərbaycan ədəbiyyatında da ədəbi cərəyanların fəaliyyətini başa çatdıraraq ədəbiyyat meydanından çıxması, yaxud da özünə yaxın olan yazıçıların təmsil olunduqları ədəbi cərəyanlarda fəaliyyətlərini davam etdirmələri normal və bədii bir prosesdir. Hələ ki, Azərbaycan ədəbiyyatında "birləşmə" və ya "daima" prosesləri ədəbi cərəyanlarda yox, müstəqillik dövrünün başlanğıc mərhələsində mövcud olmuş ədəbi qruplar, yaxud yaradıcılıq dərnəkləri arasında baş vermişdir ki, bu da nəticə etibarilə ədəbi cərəyanların yaranmasına təkan vermişdir. Zaman və ədəbiyyat münasibətləri, inkişaf etmiş dünya ölkələrində və ayrı-ayrı müstəqil dövlətlərdə gedən demokratik ictimai-siyasi proseslər özünün yeni ədəbiyyatını yaratdığı kimi, fərqli ədəbi cərəyanları da meydana çıxara bilər. Ədəbiyyatda baş verməkdə olan dəyişmələr yeniləşməkdə davam edən cəmiyyətin doğurduğu ədəbi proseslərdən ibarətdir.

Yeni tarixi epoxanın Zaman və ədəbiyyat münasibətləri bədii yaradıcılıq metodunun və ədəbi cərəyanların taleyini həll edən və istiqamətləndirən əsas faktordur.

Bütün bunlara görə, çoxmetodlu ədəbiyyata keçid prosesləri və yeni ədəbi cərəyanların yaranması problemi ədəbiyyatşünaslıq elminin tədqiqat obyektinə çevrilməlidir.

**Ədəbiyyat / *References***


1. Həbibbəyli, İsa. Azərbaycançılıq konsepsiyası //AMEA, "Xəbərlər" jurnalı (Humanitar elmlər seriyası). – Bakı, 2015, № 3.
2. Həbibbəyli, İsa. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. – Bakı: Elm, 2019.
3. Quliyev, Qorxmaz. XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları. – Bakı, 2012.
4. Yetkin Süut, Kemal. Ədəbiyyatda akıllar. – Türkiyə, İstanbul: Remzi kitab evi, 1967.
5. Овчаренко, Александр. Социалистическая литература и современный процесс. – Москва: Современник, 1975.
6. Гагудуллина, Дания. Модернизм в татарской литературе первый третий ХХ века. – Казань, 2013.
7. Хрущев, Сергей. Никита Хрущев – реформатор. – Москва: Время, 2010.


## Процессы перехода на полиметодную литературу и формирования новых литературных течений


**Иса Габиббейли**
Президент НАНА, академик
E-mail: isa.habibbeyli@science.az



**Резюме.** В статье впервые исследуется проблема метода художественного творчества в азербайджанской литературе в период Независимости. Автор объясняет причину возникновения в советской литературе творческого метода социалистического реализма как единого художественного метода, сформированного согласно требованиям однопартийной общественной структуры бывшего Советского Союза. Построение и развитие в Азербайджане с 90-х годов независимого правового демократического государства привело к созданию художественно-идеологического поля для перехода единого творческого метода литературы на полиметодную литературу.

В статье задаётся вопрос: что означает полиметодная литература и характеризуются её особенности. Автор с научно-теоретических позиций обосновывает появление в период полиметодной литературы литературных течений, выполняющих функцию художественного метода и доводит до внимания сделанные им научно-теоретические выводы о появившихся в азербайджанской литературе литературных течениях.

Научно-теоретические положения статьи, написанной на основе опыта азербайджанской литературы периода Независимости, в наше время могут служить ключом для изучения вопроса художественного метода в литературе других народов.



**Ключевые слова:** полиметодная литература, переход, азербайджанская литература, период Независимости